**“Neft-qaz sektoruna aid edilən iqtisadi fəaliyyət növlərinin siyahısının “İqtisadi Fəaliyyət Növləri Təsnifatı”nın (AZT029-2008) beşrəqəmli altsinif kodları səviyyəsində təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının 4.8.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Neft-qaz sektoruna aid edilən iqtisadi fəaliyyət növlərinin siyahısı “İqtisadi Fəaliyyət Növləri Təsnifatı”nın (AZT029-2008) beşrəqəmli altsinif kodları səviyyəsində təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 9 avqust 2019-cu il
355

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 9 avqust tarixli 355 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**Neft-qaz sektoruna aid edilən iqtisadi fəaliyyət növlərinin**

**Siyahısı**

| **İqtisadi Fəaliyyət Növləri Təsnifatı (AZT029-2008) altsinfi** | |
|---|---|
| **kodu** | **adı** |
| 06100 | Xam neft hasilatı |
| 06200 | Təbii (yanar) qaz hasilatı |
| 09101 | Neft və təbii qaz hasilatı sahəsində xidmətlərin göstərilməsi |
| 09102 | Neft və təbii qazın hasilatı üçün quyuların qazılması |
| 19200 | Təmizlənmiş neft məhsullarının istehsalı, o cümlədən neft məhsullarından briketlər |